**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PEDAQOJİ YÖNLÜ KOLLECLƏRİN İNNOVATİV İDARƏEDİLMƏSİNİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

İxtisas: 5802.01 – Təhsilin təşkili və planlaşdırılması

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Sevda Hidayət qızı Axundova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Xəzər Universitetinin Təhsil departamentində yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, əməkdar müəllim
**Piralı Behbudalı oğlu Əliyev**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Emilya Rafiq qızı Hüseynova**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: fizika-riyaziyyat elmləri doktoru, professor
____________ **Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının
elmi katibi: filologiya elmləri doktoru
____________ **İsaxan Abdulla oğlu İsaxanlı**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
_____________ **Akif Nurağa oğlu Abbasov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Öz başlanğıcını 20-ci əsrin sonundan götürən və bu gün ictimai həyatımıza geniş sirayət edən innovasiyaların meydana gəlməsi və genişlənməsi sayəsində, cəmiyyətin sosial-iqtisadi həyatında həm kəmiyyət, həm də keyfiyyətcə mühüm dyişikliklər yaranmışdır. Digər sahələrdə olduğu kimi təhsildə də baş verən innovasiyaların yeni keyfiyyət halına gətirilməsi, onun tələbə və müəllim yaradıcılığına daha dərindən nüfuz etməsi artıq zəruriyyətə çevrilmişdir. Öz təbiətinə görə təhsildə olan pedaqoji innovasiya bütün dəyişikliklərin ilkin və məhək daşı hesab edilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun Orta İxtisas Təhsilinə dair 21-ci Maddəsinin 21.1 bəndinə əsasən, "orta ixtisas təhsili cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəssis hazırlığını təmin edir."[1]

Azərbaycan hökuməti və Azərbaycan Respublikası təhsil nazirliyinin kolleclərin inkişaf etdirilməsi üçün son illərdə qəbul etdiyi bir sıra qərar və əmrlər kolleclərin idarə olunmasını xeyli yaxşılaşdırmaq üçün əsaslı stimullar hazırlamışdır. Məsələn, "Nazirlər Kabinetinin 17 aprel 2020-ci il tarixli, 140 nömrəli qərarı ilə 2010-cu ildən qüvvədə olan orta ixtisaslar təsnifatı ləğv edilmiş və müasir dövrün müvafiq ixtisaslar üzrə yeni tələblərinə uyğun olan yeni təsnifat hazırlanmışdır. Müəyyən şərtlər daxilində "Kolleclərdən universitetlərə imtahansız qəbul qaydaları"na dair Azərbaycan Respublikası təhsil nazirliyində hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmiş qaydalar da (2019) bu sahəyə verilən önəmin göstəricilərindən biridir.

Bütövlükdə Azərbaycanda kolleclərin fasiləsiz olaraq inkişaf etdirilməsi üçün möhkəm normativ-hüquqi baza yaradılmışdır.

Hazırda təhsil işçiləri ilə bağlı dəyişilmiş gözləntilər təhsildə innovativ və səmərəli yeniliklər edilməsi zəruriyyətini yaratmışdır.

---

[1] "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu. http://www.e-qanun.az/framework/18343

Başqa sözlə desək, artıq “elm, təhsil və innovasiyanın vəhdəti təhsil sahəsi üzrə dövlət siyasətinin başlıca istiqamətlərindən birinə çevrilir. Təhsilin ənənəvi üsullarından istifadə etməklə həyata keçirilməsi ölkə iqtisadiyyatının tələblərinə indiki dövrün prizması nöqteyinəzərindən cavab vermir”[2] və artırılmalı olan təlim keyfiyyəti tələblərini ödəmir.

Kolleclər çoxfunksiyalı təhsil müəssisələridir; belə ki, onlar yeni sosial-iqtisadi şəraitə ən çox uyğunlaşdırılmış, regional təhsil komplekslərinə mümkün qədər inteqrasiya olunan və bu günə qədər idarəetmə problemləri müəyyən qədər araşdırılmış subbakalavr təhsil müəssisələri kimi çıxış edir. İnstitusional missiyaların dəyişməsinə baxmayaraq, pedaqoji yönlü kolleclərin əksəriyyəti Azərbaycanda gələcək universitet tələbələri üçün ilkin giriş qapısı hesab edilir. Bu müəssisələrin digər bir xüsusiyyəti də onların bağlı olduğu icmanın dəyişən və innovativ tələbatına cavab verməsi zəruriyyəti ilə əlaqədardır. Bu baxımdan optimal strategiyalara və şəraitə əsaslanaraq və innovasiyalı idarəetməni təmin etməklə, təlimin keyfiyyəytini yüksəltmək məsələləri hazırda çox böyük aktuallıq təşkil edir. Bu aktuallığı vacib edən şərtlər aşağıdakılardır:

1. Pedaqoji yönlü kolleclərdə təlimin məzmununun böyük sürətlə dəyişikliklərə uğraması, lakin təlimin idarə edilməsinin təkmilləşdirilməsi tempinin bu sürətdən geridə qalması;

2. Bu, qeyri-proporsionallığın qarşısını almaq üçün elmi-texniki yeniliklərin rasional innovativ idarərtmə ilə pedaqoji və psixoloji cəhətdən koordinasiya edilməsinə tələbatın yüksəlməsi;

3.Yeni innovativ idarəetmə proseslərinin həyata keçirilməsi və onun təlim keyfiyyətinə təsiri üçün zəruri şərtlərin və mexanizmin öyrənilməsinə ehiyacın artaması;

4. İnnovativ tətbiqetmələrərin struktur komponentlərinin pedaqoji yönlü kolleclərin idarəçiliyi, pedaqoji heyəti, kadr potensialı, maddi-texniki, informativ və maliyyə resursları ilə uzlaşdırılması üçün daha geniş nəzəri araşdırmalara ehtiyacın yaranması.

---

[2] Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi. [Elektronresurs] / tərt.ed. S. Səfərova. Aztehsil. com saytı, – Bakı, 01 Mart, 2019. URL: https://aztehsil.com/news/8294-azerbaycanın-ali-tehsil-sisteminde-tədqiqat-ixtira-və-innovasiyalarin-guclendirilməsi.html. s.16

Problemi aktual edən digər bir cəhət isə onunla bağlıdır ki, artıq elmi-pedaqoji ədəbiyyatda innovativ idarəetmənin təlimin nəticələrindən kənarda təhlil etmək meyilləri həm yerli, həm də dünya praktikasında məqbul hesab edilmir. Odur ki, bu strateji sahələrin korrelyativ əlaqədə öyrənilməsi zəruriyyəti hələ də qalmaqdadır.Bu gün pedaqoji sahədə çalışan işçilərin elmi dünyagörüşü, onların praktik bilik və bacarıqlarının səviyyəsi, şəxsiyyət kimi formalaşması, idarəçiliyi və digər mühüm amillər də zəruri tələblər sırasındadır. Deməli, kifayət qədər savadlı olmaqla bərabər müəllim kadrlarının idarə olunmasında innovativ yenilikli texnologiya və səmərəli metod və üsullardan istifadə də təlim keyfiyyətinə adekvat şərait yaradılmasını mümkün edən ən mühüm taktikaya çevrilmişdir.

Kollec təhsilinin idarəçiliyinə dair xeyli sayda ədəbiyyat mövcud olsa da, bu innovativ idarəçiliyin təlim keyfiyyətinin yüksəldilməsində necə realizə olunduğuna, bu qarşılıqlı əlaqə və təsirlərin mexanizminin və dinamik modellərinin müəyyənləşdirilməsinə, yəni problemin korrelyativ miqyasda öyrənilməsinə dair kifayət qədər ətraflı araşdırılmalar aparılmamışdır. Bütün bu böşluqların dərindən təhlil olunması məqsədilə, tədqiqatımızın mövzusunu "Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin təlim keyfiyyətinə təsiri" kimi müəyyənlşdirmişik.

Təlimin və təhsilin innovativ idarəetmə məsələləri, onların spesifik xüsusiyyətləri və təlim keyfiyyətinin artırılması üçün metodları və yolları, pedaqoji innovasiyaların digər aspektləri həm azərbaycanlı, həm də digər ölkələrdən olan alimlərin diqqət mərkəzində olmuşdur. M.Mehdizadə, A.N.Abbasov, F.A.Rüstəmov, F.B.Sadıqov, R.H.Məmmədzadə, P.B.Əliyev, H.H.Əhmədov, S.C.Rəsulov, Ə.X.Paşayev, F.N.İbrahimov, L.N.Qasımova, M.İ.İlyasov, Ə.A.Kəlbəliyev, T.İ.Şamova, İ.A.Sudakov, P.İ.Vaqanov, S.N.Parkinson, S.V.Sidorov, L.Paluça, İ.A.Verhaeghel və R.Kfir, A.Sançez və digərləri bunlara misal ola bilər.

İnnovativ təlimin genezisi və formalarına dair rusiyalı alimlər E.A.Qnatişina, L.V.Sepp, O.F.Xarman, V.İ.Zaqvyanskiy, innovasiyaların çoxşaxəliliyinə dair B.Anahita, E.R.Cennifer, S.A.Salli, innovativ təlim texnologiyalarına dair A.M.Nəzərov,

İ.B.Əhmədov, innovativ bacarıqlara dair C.H.Eylinq araşdırmalar aparmışlar.

T.İ.Karpova, N.R.Yusufbekova, M.L.Kakkonen, H.E.Douqlas təhsildə innovasiya proseslərinin bir sıra parametrlərini öz əsərlərində tədqiq etmişlər. Təhsil müəssisələrinin, o cümlədən kolleclərin innovativ idarə olunması və onların modelləri İ.V.Snixovskayanın, B.G.Bodinin, M.A.Rikkerinkin və digər tədqiqatçıların elmi əsərlərində müəyyən qədər təhlil və şərh olunmuşdur.

İnnovasiyaların tətbiqi, onların kollec həyatının müxtəlif aspektləri eləcə də təlim keyfiyyəti ilə əlaqəsinə dair son illərdə həm ölkə daxilində, həm də respublikamızın hüdudlarından kənarda yazılmış əsərlər vardır. Təhsil sistemində idarə etmə məsələləri ilə bərabər təlim keyfiyyəti də xüsusi əhəmiyyət daşıyır. Bu sıraya tədqiqatçılardan A.K.Mahmudoğlu, R.H.Məmmədzadə, V.P.Bespalko, S.K.Kaldıbayev, V.S.Lazarev, V.V.Mayer, E.V.Matvienko, S.E.Şişovu, təlim keyfiyyəti kontekstində səriştəlilik və innovasiyanı tədqiq edənlərə, D.A.Zaqrievna, L.İ.Sveşnikova, İ.F.Filipçenkova, P.P.Gerhardus, M.M.Keupp və b. göstərmək olar.

Bundan başqa, 20-ci əsrdən başlamış hal-hazırki vaxtadək kollec tələbələrinin tədqiqat səriştəliliyinin formalaşdırılması, L.Şabdulova, N.M.Abdullahi, kolleclərin idarə olunmasında texnoloji yanaşma, O.V.Elina, Ç.Frimən, N.Postman, innovasyalı kolleclərin idarə ediməsinin sosial-pedaqoji mexanizmləri, J.E.Etli, innovasiyalı idarəetmənin nəzəriyyə və metodologiyası, S.Ceveni və G.Kontissa, F.P.Druker, B.A.Lundval, G.Singh, pedaqoqların professional mobilliyinin kolleclərin innovasiyalı inkişafında rolu, S.A.Morozova, B.V.Boumova, pedaqoji təhsil müəssisələrinin innovasiyalı inkişafının konseptual əsasları, D.M.Larid, H.J.Alsçuler, pedaqoqların innovasiya fəaliyyətinə hazırlanması, V.A.Slastenin, pedaqoji kadrların innovativ idarə edilməsi, O.Rzayev, V.M.Anışin, Y.A.Konarjevskiy, P.G.Herrmann, D.A.Manea, Ç.L.Şuk, R.A.Tupsonq innovasiyaların tətbiqi, ölçülməsi və standartlaşdırılması, J.E.Fagerberq və digərləri tərəfindən tədqiq olunmuşdur.

Son zamanlar bir sıra azərbaycanlı alim və mütəxəssislər S.H.Axundova, F.A.Cəbrayılova, L.Ş.Əmrahlı, M.İ.İlyasov bu problemlərin bəzi aspektləri ilə əlaqədar kitab və məqalələr

yazmışlar. F.B.Sadıqov innovasiyaların mərhələləri və növləri, F.N.İbrahimov, R.L.Hüseynzadə pedaqogikada ziddiyyətli məsələlər və innovasiyanın vacibliyi, A.M.Nəzərov innovasiyaların səviyyələri, E.Əliyev elm, təhsil, innovasiya üçbucağının əlaqəsi, H.H. Əhmədov perspektiv illərdə müvəffəqiyyətli, həlli əvvəlcədən düzgün planlaşdırılmaq fəaliyyəti, S. Məmmədov idarəetmənin psixoloji əsasları, V.A.Slasten və həmkarları məktəb idarəetməsinin innovativ formalarının üstünlüyü, F.Moulaert və F.Sekia innovasiyanın ərazi idarəetmə funksiyası kimi problemləri əsərlərində işıqlandırmışlar.

Lakin bütün bunlarla bərabər, pedaqoji profilli kolleclərin innovasiyalı idarə edilməsinin təlim keyfiyyətlərinə təsir mexanizmləri konseptual olaraq axıradək işlənib hazırlanmamışdır.

Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin təlim keyfiyyətində və bütövlükdə təşkilati-pedaqoji məsələlərdə predmetləşməsinin korrelyativ mexanizminin müəyyən edilməsi, bu təsirin imkanları və innovativ idarəetmənin təlim keyfiyyətinə təsiri mexanizminin həm normal, həm də böhranlı vəziyyətlər üçün modelləşdirilməsi, innovasiyalı idarə etmənin inkişaf meyilləri, prinsipləri və onun gələcək inkişafa təsiri yollarının araşdırıılması, müsbət tendensiyaların stimullaşdırılması və mənfi meyillərin aradan qaldırılması üçün priventiv addımların müəyyənləşdirilməsinə dair elmi və nəzəri müddəaların təhlili ilə sıx surətdə bağlıdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti pedaqojiyönlü kolleclərdə innovativ idarəetmə fəaliyyətidir. Tədqiqatın predmeti pedaqojiyönlü kolleclərdə innovativ idarəetmə fəaliyyətinin təlimin keyfiyyətinə təsiri prosesidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi pedaqojiyönlü kolleclərin innovativ idarə olunması və onun təlimin keyfiyyətinə təsiri mexanizminin müəyyənləşdirilməsi, bunlarla bağlı pedaqoji modellərin hazırlanması, yeni idarəetmə modelinin sınaqdan keçirilməsi və pedaqojiyönlü kolleclərin səmərəliliyinin artırılmasına innovativ idarəetmənin təsirinin qiymətləndirilməsidir.

Yuxarıda göstərilən məqsədə, mövzunun obyekti və tədqiqat predmetinə uyğun **tədqiqatın vəzifələri** aşağıdakılardır:

- innovativ idarəetmə komponentləri nəzərə alınmaqla pedaqojiyönlü kolleclərin inkişaf meyillərini təhlil etmək;

- pedaqojiyönlü kolleclərdə innovasiya proseslərinə mane olan amilləri müəyyənləşdirmək;

- pedaqojiyönlü kolleclərdə innovasiya menecmenti konsepsiyasını inkişaf etdirmək;

- pedaqojiyönlü kolleclərin inkişafı üçün innovativ layihələrin qiymətləndirilməsi və seçilməsi üçün metodika hazırlamaq;

- bu kolleclərdə innovativ fəaliyyətin artırılması üçün təşkilati və pedaqoji şərtləri müəyyənləşdirmək;

- innovasiyanın pedaqoji effektivliyə və təlim keyfiyyətinə təsirinin qiymətləndirilməsi metodologiyasını hazırlamaq.

**Tədqiqatın metodologiyasını** pedaqoji fakt, hadisə, prosesləri öyrənmək, dərk etmək və dəyişmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların, vasitələrin və nəzəri müddəaların məcmusu təşkil edir.

Qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi məqsədilə aşağıdakı **tədqiqat metodlarından** istifadə edilmişdir: nəzəri təhlil, müşahidə, müsahibə, problemlə bağlı qərar və göstərişlər, pedaqojiyönlü kolleclərin innovativ idarə olunmasına dair materiallar, sənədlərin öyrənilməsi, anket sorğusu, pedaqoji eksperiment.

Eksperiment üç mərhələdə aparılmışdır. Birinci mərhələ (2018-2019-cu illər) müəyyənedici eksperiment, ikinci mərhələ (2019-2020-ci illər) öyrədici eksperiment, üçüncü mərhələ isə (2020-2022-ci illərdə) yoxlayıcı eksperiment təşkil edilmişdir. Eksperimentə ADPU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kolleci və Astara Pedaqoji Kolleci cəlb edilmişdir.

- Riyazi və statistik metodlar: Sorğu və eksperiment metodlarının köməyi ilə alınan nəticələr ümumiləşdirilərək qruplaşdırılımış, öyrənilənlər arasında kəmiyyət asılılığı müəyyənləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsi təlimin keyfiyyətinin yüksəldilməsini, mütəxəssislərin rəqabət qabiliyyətinin artırılmasını və pedaqoji kadrların peşəkarlığının yüksəldilməsini təmin edir.

2. İnnovativ idarəetmə təlimin, tərbiyənin və inkişafın səmərəliliyini artıran sistemli bir prosesdir.

3. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin konseptual modeli çevikliyə və dəyişkənliyə malik olan vahid, sinergetik xarakterli (stimullaşdırıcı, məzmunlu, idarə olunan, texnoloji, qiymətləndirilən və effektli) struktur komponentləri əhatə edir, onun formalaşması prosesində innovasiyalar inkişaf etdirilir, mənimsənilir və yayılır.

4. Pedaqojiyönlü kolleclərdə innovativ təhsil mühitinin yaradılması, tələbə və müəllimlərin innovativ potensialının inkişafına, layihə işləyib həyata keçirmələrinə, məsuliyyətli və rəqabətli olmalarına kömək edir.

5. Pedaqoji innovasiyanın çoxşaxəli bir proses kimi mahiyyəti, məzmunu, təşəkkülü və növləri, eləcə də buraya daxil olan struktur elementləri təlim keyfiyyətinin əsasını təşkil edir.

6. Pedaqojiyönlü kolleclərin innovativ inkişaf perspektivlərinin hədəflənməsində prioritet sahələrin istiqamətlərinin qiymətləndirilməsi zəruriyyətə çevrilir.

7. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsi ilə təlimin keyfiyyəti arasında korrelyativ əlaqənin yaradılması işin pedaqoji-psixoloji əsaslarda qurulmasından asılıdır.

8. Kolleclərdə innovativ idarəetmənin təklif olunan modeli təlim keyfiyyətinin yüksəldilməsinin təminatıdır.

9. İnnovativ idarəetmə ilə səmərəlilik arasında kompozit əlaqə mövcuddur.

**Tədqiqatın elmi yeniliyi:**

1. Pedaqoji innovasiyanın təşəkkül və inkişaf tarixi, növləri, çoxşaxəliliyi və onu yaradan səbəblər tədqiq olunmuşdur.

2. Pedaqojiyönlü kolleclərin innovativ inkişafının idarə edilməsi prosesinin səmərəliliyi səriştə əsaslı, nəticəyönümlü, aksioloji, proqram-məqsədli, klaster metodlu, sistemli, şəxsiyyətyönlü fəaliyyətə əsaslanan metodoloji yanaşmalarla təmin edilmişdir.

3. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin, inkişafının əsas komponentləri çevikliyə və dəyişkənliyə malik olan vahid, sinergetik xarakterli (stimullaşdırıcı, məzmunlu, idarə olunan, texnoloji, qiymətləndirilən və effektli) model işlənib hazırlanmış və sınaqdan keçirilmişdir.

4. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin təlimin keyfiyyətinə təsirinin səmərəliliyini təmin edən təşkilati-pedaqoji şərait müəyyən edilmiş və eksperiment keçirilmişdir.

5. Pedaqojiyönlü kolleclərin innovativ idarə olunmasında dayanıqlı inkişafa nail olmaq üçün təlimin keyfiyyətinin qiymətləndirilməsinin meyarları və göstəriciləri işlənib hazırlanmışdır.

6. Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin pedaqoji-psixoloji əsasları, onun formalaşdırılmasının məzmun aparatı və perspektivləri müəyyənləşdirilmişdir.

7. Pedaqojiyönlü kolleclərdə innovasiyalı idarəetmənin imkanları elmi-pedaqoji cəhətdən araşdırılmış və bu idarəetmənin təlimin keyfiyyətinə təsiri mexanizmləri və reallaşdırılması modeli hazırlanmışdır.

8. Müəllim və tələbələr arasında innovativ idarəetmənin təhsil keyfiyyəti ilə korrelyativ əlaqəsinə dair konkret anket sorğuları keçirilmiş, eksperiment əsasında bu əlaqənin həm normal, həm də böhranlı vəziyyətlər üçün təsir mexanizminin yeni modeli hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, əsərdə irəli sürülən fikirlər, müddəalar pedaqogika elmini yeni ideyalarla zənginləşdirəcək, bu baxımdan idarəetmənin məzmun, metod və iş sistemini elmi əsaslar üzərində innovativ qurulmasına imkan verəcək, bütövlükdə təhsil sisteminin idarə edilməsi nəzəriyyəsinə müəyyən töhfə verən orta ixtisas təhsili müəssisələrinin idarəetmə nəzəriyyəsini elmi cəhətdən işlənmiş modellə müasirləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatdan alınan nəticələr və tövsiyələr bu tip müəssisələrin innovativ idarə olunması üçün öz işlərini səmərəli qurmaqda pedaqojiyönlü kollec müəllimlərinə, akademik qrupun kuratorlarına,tərbiyə və sosial işlər üzrə direktor müavinlərinə, tələbə şurasına, gənclər təşkilatına və kollec həyatı ilə bağlı olan digər ictimai qurumlara əməli köməklik göstərəcəkdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri ADPU-nun nəzdində olan Azərbaycan Dövlət Pedaqoji Kollecində, Xəzər universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və respublikamızdan xaricdə bir sıra respublika və beynəlxalq elmi-

praktik konfranslarda, seminarlarda müzakirə edilmişdir. Bundan başqa dissertasiyada öz əksini tapmış mühüm müddəalar həm də ingilis dilində çap olunan Sosial Elmlər üzrə Amerika Beynəlxalq Jurnalında və eləcə də Müstəqil Dövlətlər Birliyinin jurnal və məcmuələrində redaksiya heyəti tərəfindən qiymətləndirilmiş və nəşr edilmişdir. Dissertasiyanın əsas məzmunu və başlıca müddəaları 8 elmi məqalədə, 4 tezisdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Xəzər Universitetinin Təhsil departamentində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiyaya işinə giriş, 3 fəsil, 9 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr daxildir. Giriş 11 səhifə, 20,562 işarəni, I fəsil 44 səhifə, 83,488 işarəni; II fəsil 31 səhifə, 57,877 işarəni; III fəsil 44 səhifə, 77,460 işarəni, nəticə 3 səhifə, 5,236 işarəni, istifadə edilmiş ədəbiyyat siyahısı 19 səhifəni, əlavələr 1 səhifəni əhatə etməklə tədqiqat işi ümumilikdə 156 səhifə və 245,865 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

"**Giriş**"də mövzunun aktuallığı və işlənmə dərəcəsi, mövzu ilə bağlı oxşar terminoloji mühakimələrin demarkasiya xətləri əsaslandırılmış, tədqiqatda istifadə olunan əsas anlayışlar, tədqiqatın obyekti və predimeti, məqsəd və vəzifələri, metodoloji əsası, tədqiqat metodları, müdafiəyə çıxarılan başlıca müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası və praktik əhəmiyyəti öz əksini tapmışdır. Burada həm də qeyd olunur ki, kolleclərdə strateji planlaşdırma kollecin nə etdiyini, bu planın nə üçün hazırlandığını və bu planlaşdırmanın nəyə xidmət etdiyini aydınlaşdıran bir kompleks sistemdir. Belə planlaşdırma hər bir kollecin xətti-hərəkətini formalaşdıran və onları gələcək səylərə yönəldən, onların mükəmməl şəkildə düşünülmüş qərar və hərəkətlərini formalaşdıran bir stiqamətdir. Heç də təsadüfi seyildir ki, buraya yalnız mövcud vəziyyət deyil, həm də gələcəkdə rəqabətli dəyişikliklərin idarə olunması, bütün maraqlı tərəflərin bu

idarəetməyə cəlb edilməsi və təşkilatı və maliyyə resurslarının düzgün qiymətləndirilməsi və yönəldilməsi daxildir. Göründüyü kimi, **innovativ idarəetmə ümumiyyətlə idarəetmənin bir növü kimi**, ümumi strateji planlaşdırmdan kənarda qalan bir proses olmayıb, elə onun tərkib hissəsi kimi çıxış edir.

**"Təhsildə innovasiya"** adlanan I fəslin ***"İnnovasiyanın mahiyyəti, təşəkkülü və inkişafı"*** adlı birinci paraqrafında təhsil innovasiyasının mahiyyəti, məzmunu, strukturu, təşəkkülü məsələləri araşdırılmış və təhlil edimişdir. Qeyd olunmuşdur ki, təhsil innovasiyası bir sıra xüsusiyyətlərə malikdir:

1. Təhsil innovasiyası ikili xüsusiyyət daşıyır (yəni, o, bir tərəfdən iqtisadi-siyasi inkişafın səviyyəsindən asılıdır, digər tərəfdən koqnitiv səciyyəlidir);
2. O, bütövlükdə bir proses olmaqla, iqtisadi ehtiyacları müxtəlif pedaqoji proseslərə maraq göstərmə üsulu ilə fayda və səmərəlilik yaratmaq üçün təhsil arqumentlərinə çevirir;
3. Onun həyata keçirilməsində dövlətin funksiyası yalnız mövcud yenilikləri tətbiq etməklə bitmir, dövlət həm də innovativ yeniliklərə ictimai legitimlik, hamı tərəfindən məqbul hesab edilən əlçatanlıq xarakteri verir;
4. Təhsil innovasiyası əsasən iki sahəli mahiyyət üzrə – struktur yenilikləri və təhsil islahatları vasitəsilə inkişaf edir, lakin təkcə bunlarla məhdudlaşmır;
5. Həyata keçirilən hər iki formada olan innovasiyada iqtisadi zəmin dominantdır, lakin öz xarakterlərinə görə innovasiya yalnız öz üzərində nəzarət mexanizmini əks etdirmir, o həm də, bu innovativ yenilikləri ictimaiyyət içərisində yayır.

Vaxtilə innovasiyanın təhsillə bağlı olmasına dair araşdırmalarında rus alimləri maraqlı mülahizələr irəli sürmüşlər. Onlar innovasiyaları şərh edərkən göstərmişlər ki, bu yeniliklər "*təhsil mühitinə məqsədyönlü şəkildə gətirilən, təhsilin müəyyən bir sahəsini və ya bütövlükdə təhsil sistemini yaxşılaşdıran sabit elementlərdir*"[3].

[3] Егоров В.В. Педагогика высшей школы: Учебное пособие. /В.В.Егоров, Э.Г.Скибицкий, С.М.Ударцева [и др.] – Караганда: – 2013. – с. 226 - 409 с.

Keçən əsrin 60-70-ci illərində təhsil innovasiyasına dair mühüm tədqiqatlar aparılmamış, innovasiya daha çox elmi idarəetmənin tərkib hissəsi kimi öyrənilmişdir. Sonralar bu konsepsiya daha çox "yeni bir şeyin və ya üsulun uğurlu tətbiqi hesab edilmiş"[4] və ya "dəyişiklik gətirən məxsusi bir şəxsin və ya qrupun yeniliyi" kimi izah edilmişdir. Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə Təşkilatı tərəfindən təqdim olumuş hesabatda deyilir: "*Təhsil innovasiyası ödənilməmiş ehtiyacların qarşılanması üçün spesifik təhsil məzmununa malik ideya və təcrübəyə şamil olunur*".[5]

Bu paraqrafda pedaqojiyönlü kolleclərdə innovasiya təcrübəsinin mənbələrinə dair təhlil verilmiş və bu mənbələrə dair model hazırlanmışdır. Göstərilir ki, kolleclərdə innovasiya praktikasının əsasında 2 əsas mənbə dayanır: birbaşa innovasiya yaradanlar və innovasiyanın tələbəri ilə bağlı olanlar. Pedaqojiyönlü kolleclərdə birbaşa innovasiya yaradan komponentlər – bu sahədə kollec təcrübəsinin mövcudluğu, innovativ praktikanın yamsılama və təqlidetmə yolu ilə həyata keçirilməsi və kollecdaxili potensial qarşılıqlı əlaqədə verilmişdir. **Kollecdaxili yaradıcılıq potensialına** aşağıdakı komponentlər daxildir: 1.Yaradıcı komponent: Buraya ilk növbədə kollec pedaqoqlarının innovativ fəaliyyətə münasibəti, tətbiqlərə hazır formaların birləşməsi kimi deyil, innovasiyanın məzmununa uyğun olan özlərinin təşəbbüs qaydasında gətirdikləri səmərəli və müsbət dəyişikliklər daxildir. 2.Kollec strategiyasından irəli gələn motivasiya komponenti: Bu, elmi-pedaqoji ədəbiyyatda müxtəlif cür şərh edilir. Biz hesab edirik ki, ən qısa formada kollec strategiyasından irəli gələn motivasiya komponenti onun innovativ strategiyaya yönəlişliyinin intensivliyi və istiqamətidir. 3. Kolleclərdə kommunikasiya komponenti: "Komminikasiya

[4] Brewer D.J. Barriers to innovation in the US education //D.J. Brewer, Tierney W.G. (Eds) - in B. Wildavsky, A. Kelly and K. Carey. Reinventing Higher Education: The Promise of Innovation. - University of Southern California, Harvard Education Press, Cambridge, MA, – 2012, – p. 15. –p.11-40

[5] Innovations and initiatives in teacher education in Asia and the Pacific Region. Comparative Overview of Fifteen Countries Teacher Education Innovations /UNESCO Principal Regional Office for Asia and the Pacific, Bangkok, Thailand – Bankok, 1990. Vol 1. – p.2. – 120 p

Mərkəzləri” nin yaradılması bu komponentə xidmət edən ən vacib elementdir. Kommunikasiya blokunun inkişaf etdirilməsi innovativ idarəçilikdə, xüsusilə, müəllim-tələbə-valideyn əlaqələrinin davamlı olmasında və təhsilin keyfiyyətinin yüksəldilməsində müsbər rol oynayır, sinifdə və həmyaşıdlar arasında, media və ictimai auditoriya üçün şifahi və vizual kommunikator rolunu oynayır. O eyni zamanda tələbələr, müəllimlər və işçilər üçün şəxsi məlumatlarına daxil olmaq, onları yeniləmək, cədvəllərə və qiymətlərə baxmaq və kollec icmasında başqaları ilə ünsiyyət qurmaq üçün onlayn portal hesab edilir. 4. Müəllim və işçilərin dünyagörüşü komponenti: Buraya müəllim və digər işçi heyətinin peşəkarlıqla bağlı inamları, münasibətləri və ideologiyaları daxildir. Şəxsi inanclar və dəyərlər təhsil məqsədlərinə münasibətdə harmoniya təşkil etməlidir. 5. Şəxsi komponent: Təlim və tədrisdə bu komponenet insan resurslarının öz səylərini istiqamətləndirməsi və bütövlükdə təhsilalanların və təhsilverənlərin daha böyük uğur qazanması üçün onları mükəmməlliyə doğru həvəsləndirən bir təşkilatçı qüvvə hesab edilir.

Pedaqojiyönlü kolleclərdə birbaşa innovasiya yaradan və innovasiyanın tələbləri ilə bağlı olan faktorlar hər ikisi bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Beləlklə, innovativ hesab edilənlər digərlərindən öz mahiyytinə görə fərqlənir; onlar ümumi yanaşmalarda kənara çıxır və özəlliyi, səmərəliliyi və tirajlanmaq imkanlarının olması kimi məzmun kəsb edir. **İnnovasiyada yeniliyin tirajlanması** və ya çoxaldılması bu bacarıqlar üçün vacib hesab edilir. Çünki innovasiyanın digər oxşar məfhumlardan əsas fərqlərindən biri onun gizlində saxlanılmaması, tirajlanaraq bu səmərədən çoxluğun “ümumi məhsula” kimi yararlanmaq imkanının olmasıdır.

I fəslin ikinci paraqrafı ***“Pedaqoji innovasiyanın növləri*”** adlanır. Qeyd olunur ki, innovasiyalar öz tətbiq sferalarına uyğun olaraq çox müxtəlifdir və bu növlərdən biri də pedaqoji innovasiyalar hesab edilir. Pedaqoji innovasiyalar ilə təhsil innovasiyaları arasında da xeyli fərq vardır. Belə ki, təhsil innovasiyaları buraya daxil olan bütün infrastruktura aid olduğu halda, pedaqoji innovasiyalar təlim metodlarını, texniki vasitələrlə bilavasitə tədris prosesinə müdaxilə və ya tətbiqi və səmərəliliyi ehtiva edir.

Ümumiyyətlə, pedaqoji innovasiyanın konseptual çərçivəsini təşkil edən iki mühüm element mövcuddur – sosial və texniki. Ancaq bunlarala bərabər, innovativ tədris heç də fərqli qabiliyyət və bacarıqları eyni səviyyəyə gətirməyi də hədəf hesab etməməlidir. Pedaqoji innovasiya müəyyən kontekstdə orijinal bir metod, üsul və ya struktur təqdim etmək məqsədi daşıyan niyyətli bir hərəkət və ya tətbiqdir.

Müəllif innovasiyaların öz növlərinə, parametrlərinə, tətbiq xüsusiyyətlərinə və digər cəhətlərinə görə bir-birindən fərqləndirir. Odur ki, ən çox populyar olan pedaqoji innovasiyaların hansı növlərə malik olmasının müəyyən edilməsi bu bölgünü yaradan meyarları və onların çərçivələri, onların bütövlükdə pedaqoji prosesə və idarəetməyə təsir vasitələri və yolları haqda əsaslı təhlillər aparmaqla təmin edilə bilər. Pedaqoji innovasiyaları yönəmlilik növlərinə görə yox, dərinlik dinamikasına və ya radikallığına görə, eləcə də keçidlik xarakterinə, transformativliyinə görə üç növə bölmək də olar: a) təkmilləşdirici, b) radikal pedaqoji-innovativ və c) keçid – transformativ qruplar.

Nəticədə, tətbiqi nəzərdə tutulmuş və sınaqdan müvəffəqiyyətlə keçərək həyata pasport alan innovativ pedaqoji yeniliklərin hər birinin müxtəlif alt qrupları ehtiva etməsi ilə bərabər onların 5 mühüm qrup altında birləşdirməsi tövsiyə olunmuşdur:

1. Yönəlişliyinə görə tətbiqi nəzərdə tutan innovasiyalar;
2. Baş vermə formalarını və hədəflərə uyğunluğu nəzərə almaqla bölünən pedaqoji innovasiyalar;
3. İdarəçiliyə yönəlmiş pedaqji innovasiya növləri;
4. Kontekstinə görə klassifikasiya olunanlar;
5. İntensiviyinə görə bölünən pedaqoji innovasiyalar.

Bu meyarlar üzrə innovasiyaların hər beş növ üzrə təsnifatı onların paralel olaraq təlim keyfiyyətinin daxili təbiətinə xas olan elementlərin dəyişməsi mexanizminə, eləcə də onların fenomenoloji dinamikasına uyğundur. Bu o deməkdir ki, **dəyişkənlik və dinamiklik** pedaqoji innovasiya və təlim keyfiyyəti arasında korrelyativ rabitə hesab edilir və bu rabitə innovativ idarəetmədə təlimin keyfiyyətinə təsirin reallaşdırılması üçün həlledici rola malikdir. Burada dinamikliyi yaradan və pedaqoji innovasiyanın tətbiqində sayıla

bilməyən amillər - artırılmış təlim keyfiyyətləri (bu, pedaqoji tətbiq zamanı sayıla bilməyən, nəticədə isə sayıla bilən nəticələrlə ölçülür), gücləndirilmiş daxili və xarici kollec şəbəkəsi, daha təkmil pedaqoji struktur və davamlı inkişaf (maddi və insan resursları üzrə) şərtləri alt qatda baş verən dəyişkənlikləri – innovativ tətbiqlərin əhatə zonasının dəyişikliyinə, innovasiayaların tətbiqi sayəsində daha kiçik resurslarala idarəetmə imkanlarının yaradılmasına, rəqəmlərlə ifadə oluna bilən innovativ məhsulun kollec həyatında və ondan kənarda idtifadəyə verilməsinə və eləcə də innovativ məhsulun daha yeni sahələrə transfer olunmasına şərait yaradır.

Bundan əlavə, bu paraqrafda pedaqoji innovasiyaların təsnifatı zamanı onların intensivliyi və məqsədyönlülüyünün nəzərə alınmasının zəruriliyi də təklif olunur.

I fəslin üçüncü paraqrafı ***"İnnovasiyanın çoxşaxəliliyi"*** adlanır.

İnnovasiyaların çoxşaxəliliyi bölməsi aşağıdakı məsələlərin araşdırılmasına həsr edilmişdir: 1. İnnovasiyaları çoxşaxəli edən səbəblər və şərtlər; 2. Pedaqoji innovasiyalarla iqtisadi və biznes innovasiyalarının oxşar və fərqli cəhətləri; 3. Adi yenilklərin innovativ yeniliklərdən fərqli cəhətləri; 4. İnnovasiyanın coxşaxəli olmasının mühüm mənbələri; 5. Təhsil müəssisələrinə rəhbərlik və idarəetmə işlərində tətbiq olunan innovasiyalar və onların təbiəti; 6. İnnovasiyalarda çoxşaxəlilik yaradan mühüm şərtlər; 7. Çoxşaxəli innovasiyaları vacib bir tipi – pedaqoji innovasiyaların bir xüsusiyyətlərinin müəyyən edilməsi; 8. İnnovasiyanın məzmun aparatının dərk olunmasına dair toplanılmış faktik materialların təhlili.

Göstərilir ki, innovasiyaların çoxşaxəliliyi bəzi hallarda adi görünən faktların da innovasiyalara aid edilməsi ilə nəticələnir. Təhsil müəssisələrinə rəhbərlik və idarəetmə baxımından innovasiyalar aşağıdakı şəkildə şaxələnmişdir: 1) miqyasına görə – bir təşkilata məxsus, regional, milli-regional, yeni tipli təhsil müəssisəsinə məxsus olan; 2) həyata keçirilən pedaqoji işlərin təbiətinə görə – bir-birinə bağlı olmayan, fərdi, yerli, qlobal və sair formalarda realizə olunan; 3) implementasiya moduluna görə – özəl, qarşılıqlı əlaqəli və yeniliklər kompleksini əhatə edən, sistemli; 4) öz mənşəyinə görə isə – modifikasiya olunmuş, yəni təkmilləşdirilmiş,

əvvəlcə mövcud olana yeni bir komponentlə qoşulan və yaxud köklü cəhətdən fərqli forma və məzmunları ehtiva edənlər.

İnnovasiyaların çoxşaxəli olması yalnız onların hansısa həddə olması ilə deyil, həm də onların, öz təbiəti etibarilə hansı prosessuallığa malik olması və ya keçdiyi həyat yolu ilə bağlı olmasıdır. Bu çoxşaxəlilik bir sıra şərtlərlə bağlıdır. Bu şərtlər, həm də, ümumiyyətlə innovasiyaların çoxalması və onların çoxnövçülüyü ilə əlaqəlidir.

- Birincisi, bu innovasiyanın daxili təbiətindən, mahiyyətindən və sosial-iqtisadi sifarişi yerinə yetirmək qabiliyyətindən asılıdır.

- İkincisi, innovasiyanın çoxşaxəliliyi həmin sahədə çalışan adamların yaradıcı imkanları və kreativliyinin dərinliyi ilə bağlıdır.

- Üçüncüsü, innovativ çoxşaxəlilik onların həllini qarşılarına qoyduqları problemlərin kəmiyyət və keyfiyyətcə mürəkkəb təbiəti ilə əlaqadardır.

- Dördüncüsü, bu, innovasiyaların dinamik xarakteri ilə şərtlənir, yəni innovasiyalar daim dəyişilən şəraitə uyğun olaraq müxtəlif forma və məzmun kəsb edə bilər; onlar eyni zamanda təkmilləşmə və dəyişməyə məruz qalaraq yenidən və yeni forma və məzmunda meydana gələ bilərlər.

**Beləlklə,** innovativ hesab edilənlər digərlərindən öz mahiyytinə görə fərqlənir; onlar ümumi yanaşmalarda kənara çıxır və özəlliyi, səmərəliliyi və tirajlanmaq imkanlarının olması kimi məzmun kəsb edir. Lakin keçən əsrin ikinci yarisina kimi innovasiyalar elmi idarəetmənin tərkib hissəsi kimi öyrənilmiş, bu sahədə ciddi axtraışlar aparılmamışdır. Odur ki, bu gün təhsildə innovasiyaların hansı zəmində aparılması və innovativ təcrübənin mənbələrinin müəyyən edilməsi aktual olaraq qalmaqdadır.

II fəslin ***"Kolleclərin innovativ idarə edilməsinin elmi-pedaqoji əsasları"*** adlanan birinci paraqrafı "İnnovativ idarəetmənin pedaqoji-psixoloji xüsusiyyətləri"nə həsr edilmişdir. Bu hissədə strateji innovativ idarəetməni təşviq edən təşkilati mühitin yaradılması üçün üç fundamental elmi-nəzəri şərtlər müzakirə və təhlil edilir. Qeyd olunur ki, kolleclərin innovativ idarə olunmasının pedaqoji-psixoloji strukturu həmin kollec həyatına daxil olan bütün iştirakçıların fəaliyyəti müddətində formalaşır. Buraya fəaliyyətin mühüm elementləri daxildir. Bu elementlər aşağıdakılardan ibarətdir:

1. İnnovativ idarəetmə iştirakçılarının fəaliyyətinin yaradıcı, tədqiqat xarakterli olması;

2. Kollec rəhbərliyinin idarəetmə fəaliyyətinin analitik xarakteri;

3. Mədəni dəyərlərin qiymətləndirilməsi və nəzərə alınması;

4. İnnovasiyalı idarəetmə iştirakçıların nəzarət, qarşılıqlı nəzarət və özünənəzarət rejimində qarşılıqlı əlaqəsinin dialoji xarakteri;

5. Təlim, tərbiyə və əlavə təhsilin məzmununun sistemli təşkili;

6. İnnovativ idarəetmə fəaliyyətində iştirakçıların müstəqil olaraq şəxsi və peşəkarlıq təcrübəsindən, düşüncələrindən və təşəbbüslərindən istifadəni nəzərdə tutan innovativ proseslərin mərkəzləşdirilməmiş və ya kollegial idarə edilməsi.

İnnovativ idarəetmənin elmi-pedaqoji, pedaqoji-psixoloji xüsusiyyətlərinə dair xeyli sayda alim və mütəxəssislər – A.Nəzərov, C.Abramova, V.P.Bespalko, Y.V.Vasilyev, H.Derzkova, V.I.Juravlyov, Y.A.Konarjevskiy, T.Orlova, S.N.Parkinson, S.Şişov, Ch.Aylinq, A.Albers, M.Krossan, D.Edvard, E.H.Douqlas, McLean D.Larid, M.Frank, R.Qreq Oldham və başqaları elmi araşdırmalar aparmışlar.

II fəslin ikinci paraqrafı ***“İnnovativ fəaliyyətin formalaşdırılması işinin məzmunu”*** adlanır. Göstərilir ki, bu məzmun bir tərəfdən (1) yerli iqtisadi-sosial faktorlarla, innovativ potensialla bağlıdırsa, digər tərəfdən beynəlxalq təcrübənin öyrənilməsindən asılıdır.

İnnovasiya məzmunlu kollec müəllimlərinin qarşısında pedaqoji proseslərdə hədəflədiyi və həyata keçirməli olacaqları konkret pedaqoji məqsədlər dayanır. Bu innovasiyalı idarəçiliyin formalaşması – nəzəri metodoloji, texnoloji və tədqiqat-axtarış aspektləri üzrə qarşılıqlı əlaqədə formalaşır.

İnnovasiyalı fəaliyyətin formalaşması prosesi elmi ideyanın təhsil yeniliyinə çevrildiyi prosedur və o bu vasitələrin məcmusunda formalaşaraq inkişaf edir. Məhz ona görə də onun özəlliyi və keçdiyi mərhələlərdə müəyyən qaydada, ardıcıl və dövrü xarakterdə olur. Bu aşağıdakı mərhələləri özündə birləşdirir: 1) innovasiyanın meydana gəlməsi; 2) rəqabət şəraitində mübarizədə onun sürətli inkişafı, yetkinliyi, tirajlanması, məmnunluq yaratması və ya bunların əksinə olan proseslər; 3) innovasiyanın gündəlik həyat fəaliyyətinin tərkib hissəsinə çevrilməsi; 4) onun təkmilləşməsi və ya böhranı; 5) nəhayət, innovasiyanın öz fəaliyyətini dayandırması.

Bu paraqrafda innovativ fəaliyyətin formalaşdırılmasının yeni modeli hazırlanmış və təhlil edilmişdir.

II fəslin ***“İnnovativ fəaliyyətin inkişaf perspektivləri”*** adlı üçüncu paraqrafında mövcud olan trendlərin: (1) cəmiyyətin marketinqə doğru istiqamətləndirilməsinin güclənməsi və ya marketinq şüurunun evalyasiyası, (2) ekoloji faydaların üstün təbliği, (3) yaşıl mövzular, davamlı həll texnologiyası, yaşıl məhsullar və yaşıl proseslərin üsütnlük təşkil etməsi, (4) təhsil innovasiyalarının stratejiliyi, praktik faydalılığı, onların müsbət nəticələrə əsaslanan perspektivlərinin qücləndirilməsi, (5) koqnitiv biznes zəkanın güclənməsi, (6) texnologiyanın transferi və ya onun ötürülməsi məsələləri, (7) texnologiyaya əsaslanan proseslərin üstün inkişaf etdirilməsi kimi proseslər təhlil və şərh edilmişdir.

Pedaqoji innovasiyaların perspektiv inkişafı zamanı identifikasıya olunmuş innovasiyalar əsasən 3 perspektiv istiqamətdə aparılır: 1.Cəmiyyətdə dəyişiklik amilinə səbəb ola biləcək perspektiv innovasiyalar; 2.Tərəqqi kimi təqdim olunan yeniliklər və 3.Şəxsi mənafe, nüfuz və ya peşəkarlıq naminə edilmiş innovativ yeniliklər.

Bu paraqrafda müəllif, həm də, pedaqoji innovasiyaların perspektiv inkişaf modelini hazırlamış və onun struktur elementlərinin qarşılıqlı əlaqəsi mexanizmini təhlil etmişdir.

Dissertasiyanın **“Pedaqojiyönlü kolleclərin innovativ idarə edilməsinin təlimin keyfiyyətinə təsiri mexanizmi”** adlanan III fəslinin birinci paraqrafında (“***Kolleclərdə innovativ idarəetmənin təlimin keyfiyyətinə təsirinin imkanlari***”) kolleclərin innovasiyalı idarəedilməsi imkanları, onun sosial məzmunu, təlim keyfiyyətinin artırılmasında rolu, pedaqojiyönlü kolleclərdə təlim keyfiyyətinə nəzarətin qurulması və həyata keçirilməsi üçün tətbiq edilən minimum innovativ idarəetmə tələbləri, innovasiya davranışı və onlarla əlaqədar olan digər məsələlər təhlil edilir. Kollec həyatında innovasiyaların səmərəli idarə edilməsi və onların bir orqanizmə inteqrasiya olunması beş əsas əməliyyatla bağlıdır. Birincisi, innovasiyalar kollec həyatının qarşılaşdığı problemləri həll etmək üçün mühüm hesab edilir; ikincisi, bu vaciblik onun baş verməkdə olan dəyişikliklərə uyğunlaşması ilə əlaqədardır; üçüncüsü, kollec həyatında innovasiyaların xüsusi çəkisinin kəmiyyət və keyfiyyətcə

inkişaf etməsi onun qloballaşan dünyaya maksimum dərəcədə inteqrasiya etməsində vacib amildir; dördüncüsü, bu, dünya təhsil sistemində rəqabətin güclənməsi ilə əlaqədardır; beşincisi, dünya bazarında iş yerlərinin və onun demoqrafiyasının dəyişilməsi iş bazarına daxil olmağı bacaran "yeni kollec məzunu" məfhumunu gündəmə gətirmişdir. Deməli, kolleclərin innovasiyalı idarəedilməsi bu innovasiyaların həyata keçirilməsi yolları ilə sıx surətdə bağlıdır.

Paraqrafda, həmçinin, innovativ idarəetməni təlim keyfiyyətinə təsir imkanlarının reallaşdırılması üçün bir sıra mühüm addımların atılması, pedaqoji əməyin qiymətləndirilməsi meyarlarına innovativ yanaşma kimi mühüm amillər geniş şərh edilir, təlim keyfiyyətinə nəzarətin qurulması və həyata keçirilməsi üçün minimum idarəetmə tələblərinin modeliv erilmişdir.

III fəslin ikinci paraqrafı ***"Kolleclərdə innovativ fəaliyyətin təlimin keyfiyyətinə təsirinin reallaşdırılması modelləri***" adlanır. Bu paraqrafda kolleclərin innovativ fəaliyyətinə konseptual yanaşma və bu fəaliyyətin modelləşdirilməsi, onun komponentləri və ümumiləşdirilməsi prinsipləri təhlil edilir.

Kolleclərin innovativ idarə edilməsi dörd mühüm komponenti özündə birləşdirir – struktur, funksional, meyarlara əsaslanan və idarəetmə səviyyəli.

Kolleclərdə təlimin innovativ idarəetmə fəaliyyətinin təlim keyfiyyətində reallaşmasında dörd mühüm mənbə xüsusi rola malikdir: a) ayrı-ayrı pedaqoqlar; b) müəllimlərin müxtəlif birlikləri (yerli, regional, qlobal); c) tələbələr, məktəb idarəçiliyi və ya rəhbərliyi; d) hökumət və ya müvafiq nazirliklər.

Öz növlərinə gorə kolleclərin idarəçiliyində tətbiq olunan bütün modellər həm (1) planlı innovativ idarəetmə modelləri və həm də (2) böhranlı vəziyyətdə kollec idarəçiliyi modelləri kimi nəzərə alınmalıdır. Bunlar arasındakı fərq böhranların xarakterindən asılı olaraq təhsilin keyfiyyətinə müxtəlif formalarda təsir etmək imkanları ilə də bağlıdır.

III fəslin üçüncü paraqrafı ***"İnnovativ idarəetmənin təlimin keyfiyyətinə təsiri mexanizmi və onun ölçülməsi (eksperiment və onun nəticələrinin ümumiləşdirilməsi)"*** adlanır. Burada keyfiyyətli təlim anlayışı geniş təhlil edilir və innovativ idarəetmənin bu keyfiyyətin

yüksəldilməsindəki rolu və metodları şərh edilir. Müəllif bu baxımdan apardığı konkret sorğunun nəticələrinin analitik və elmi interpretasiyalarını verir və qeyd edir ki, təlim və keyfiyyət anlayışlarının -qarşılıqlı əlaqəsinə əsaslanaraq, təlimin keyfiyyətinə sosial, iqtisadi, pedaqoji bir kateqoriya kimi baxmaq düzgün olardı. Metodoloji aspektdə isə təhsilin keyfiyyətinin tərifinə yalnız təhsil sistemində deyil, bütövlükdə cəmiyyətin inkişafında vacib olan təhsil prosesinin və onun nəticəsinin xarakterik cəhəti kimi yanaşmaq lazımdır.

Aparılmış sorğular zamanı aydın olmuşdur ki, innovasiyalı idarəetmə pedaqoji kolleclərə qəbul olunmuş tələbələrin biliklərinin qiymətləndirilməsində və təlim keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli dərəcədə fərqlənir. İnnovasiyalı idarəetmə adaptivinnovativ, modifikasiya olunmuş və transformativ təsir imkanları yaradır.

İnnovasiyalı idarəetmənin təlim keyfiyyətinə təsirinin ölçülməsi məqsədilə 2018-2019-cu və 2019-2020 və 2020-2022-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kollecində (ADPK) və Astara Pedaqoji Kollecində (APK) hər birində 100 nəfər tələbə və 100 nəfər işçi heyəti olmaqla pedaqoji eksperiment keçirilmişdir. Eksperimentin əvvəli 2018-2019-cu illəri, sonu isə 2020-2022-ci illəri əhatə etmişdir. Eksperimentin nəticəsi göstərmişdir ki, onun əvvəlində rəyi soruşulanların böyük bir hissəsi innovasiyalı idarəetmə ilə təlim keyfiyyətini əlaqələndirməkdə çətinlik çəkirlər.

Eksperiment üçün seçilmiş suallar həm eksperimentin əvvəlində, həm də eksperimentin sonunda təkrarlanmış, əldə olunan nəticələr toplanaraq təhlil edilmişdir. Sualların seçimi kriteriyasında innovasiyalı idarəetmə və təlim keyfiyyətinin korrelyasıyası dayanmışdır. Eksperimentin sonunda innovativ idarəetmə və təlim keyfiyyəti haqqında inteqrativ əlaqənin olub-olmadığını öyrənmək üçün statistik təhlillər aparılmış və inkişaf tendensiyası müəyyənləşdirilmişdir. Seçilmiş iki pedaqojiyönlü kolleclərdə eksperimentin əvvəlində (2018-2019-cu illər) innovasiyanın təlim keyfiyyətinə təsiri ilə əlaqəsinə dair müəllimlər arasında aparılmış sorğunun nəticələri Cədvəl 3.3.1-də, tələbələrin cavabları isə Cədvəl 3.3.2-də əksini tapmışdır.

**Cədvəl 3.3.1**
**ADPK və APK-də çalışan müəllimlərin innovasiyalı idarəetmənin təlim keyfiyyətinə təsirinə dair rəy sorğusunun nəticələri 2018-2019 (eksperimentin əvvəli)**

| Kollecin adı | Sizin kollecdə tətbiq edilən innovasiyalar təlim keyfiyyətinə təsir edirmi? | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Cavab verməyə çətinlik çəkirəm |
| ADPK | 54% | 31% | 15% |
| APK | 41% | 35% | 24% |

Pedaqoji eksperimentin birinci mərhələsindən sonra tələbə və müəllimlərin arasında göstərilən problemlərlə bağlı məlumatlandırma aparılmış və müəlim-tələbə-rəhbərlik seqmentində kolleclərdə innovativ işin mahiyyəti və formaları haqda hər iki kollektivlə söhbətlər keçirilmişdir. Nəticədə, müəllimlərin innovativ implementasiya gücü artmış və bu, real təlim keyfiyyətinin qiymətləndirilməsi dinamikasında öz əksini tapmışdır. Ölçmə işinin nəticələri təbii olaraq, həm də hər iki kollektivdən olan müəllim və tələbə respondentlərin cavablarına da müxtəlif olmuşdur.

**Cədvəl 3.3.2**
**ADPK və APK-də təhsil alan tələbələrin innovasiyalı idarəetmənin təlim keyfiyyətinə təsirinə dair rəy sorğusunun nəticələri 2018-2019 (eksperimentin əvvəli)**

| Kollecin adı | Sizin kollecdə tətbiq edilən innovasiyalar təlim keyfiyyətinə təsir edirmi? | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Cavab verməyə çətinlik çəkirəm |
| ADPK | 48% | 24% | 28% |
| APK | 43% | 35% | 22% |

İnnovasiyalı idarəetmə və innovasiyalı təlimin keyfiyyətə təsir imkanlarını və bu təsirin inkişaf dinamikasını yoxlamaq məqsədilə biz eksperimentə cəlb edilmiş pedaqojiyönlü kolleclərdə bir ildən sonra yenidən sorğu keçirdik. Hər iki kollecin 100 nəfər müəllim və

100 nəfər təıəbə heyəti bu sorğuda iştirak etdi. Müəllimlərin sorğuya münasibətinin nəticələri cədvəl 3.3.3-də, tələbələrin sorğuya cavabları isə cədvəl 3.3.4-də öz əksini tapmışdır.

**Cədvəl 3.3.3**
**ADPK və APK-də təhsil çalışan müəllimlərin innovasiyalı idarəetmənin təlim keyfiyyətinə təsirinə dair rəy sorğusunun nəticələri 2020-2022 (eksperimentin sonu)**

| Kollecin adı | Sizin kollecdə tətbiq edilən innovasiyalar təlim keyfiyyətinə təsir edirmi? | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Cavab verməyə çətinlik çəkirəm |
| **ADPK** | 59% | 18% | 23% |
| **APK** | 53% | 27% | 20% |

**Cədvəl 3.3.4**
**ADPK və APK-də təhsil alan tələbələrin innovasiyalı idarəetmənin təlim keyfiyyətinə təsirinə dair rəy sorğusunun nəticələri 2020-2022 (eksperimentin sonu)**

| Kollecin adı | Sizin kollecdə tətbiq edilən innovasiyalar təlim keyfiyyətinə təsir edirmi? | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Cavab verməyə çətinlik çəkirəm |
| **ADPK** | 59% | 18% | 23% |
| **APK** | 53% | 27% | 20% |

Hər iki il üzrə keçirilmiş pedaqoji eksperimentin nəticələrini topladıqdan sonra əldə olunmuş statistik göstəricilər riyazi hesablama yolu ilə hesablayaraq təhlil etdik.

Beləliklə, ADPK-üzrə 2018-2019-cu ildə innovasiyaların tətbiqi ilə əldə olunmuş təlim keyfiyyətinin müəllimlər tərəfindən verilən qiyməti – 54%, tələbələr tərəfindən qiymətləndirmənin yekunu – 48%-i toplayaraq qiymətləndirmə qrupunun sayına (tələbə və müəllim heyətinə), yəni 2-yə bölsək, keyfiyyətin innovasiyadan asılılıq formulu həmin ildə bu kollec üçün (54%+48%) /2=102/2= 51% kimi

olacaqdır. Bu göstəricilər müvafiq olaraq 2020-2022-ci il üçün ADPK-də (77%+59%)/2=136/2=68% formulu ilə hesablanmışdır (Bax: Cədvəl 3.3.5).

**Cədvəl 3.3.5**

**İnnovasiyalı idarəetmənin təlimin keyfiyyətinə təsirinin ölçülməsi. 2018-2019 və 2020-2022-ci illərdə ADPK və APK-də keçirilmiş pedaqoji eksperimentin müqayisəli statistikası və dinamikası**

| **ADPK müəllimlər** | **Cavabların sayı/dinamika** | | **Cavab verməyə çətinlik çəkirəm** |
|---|---|---|---|
| | **Bəli** | **Xeyr** | |
| 2018-2019<br>2020-2022<br>Dinamika | 54<br>77<br>+23 | 31<br>18<br>+13 | 15<br>5<br>10% |
| **APK müəllimlər** | **Bəli** | **Xeyr** | **Cavab verməyə çətinlik çəkirəm** |
| 2018-2019<br>2020-2022<br>Dinamika | 41<br>59<br>+18 | 35<br>24<br>+11 | 24<br>17<br>7% |
| **ADPK tələbələr** | **Bəli** | **Xeyr** | **Cavab verməyə çətinlik çəkirəm** |
| 2018-2019<br>2020-2022<br>Dinamika | 48<br>59<br>+11 | 24<br>18<br>+6 | 28<br>23<br>5% |
| **APK tələbələr** | **Bəli** | **Xeyr** | **Cavab verməyə çətinlik çəkirəm** |
| 2018-2019<br>2020-2022<br>Dinamika | 43<br>53<br>+10 | 35<br>27<br>+8 | 22<br>20<br>2% |

ADPK üçün bu təlimin keyfiyyət dəyərinin innovasiyadan asılılığı 2020-2022-ci ildə əvvəlki ilə nisbətən 17% artaraq 68% olmuşdur.

Bu propopsiya APK üçün müvafiq olaraq 2018-2019-cu ildə 42% və 2019-2020-ci ildə isə, eksperimentin sonunda 14% artaraq 56%-ə yüksəlmişdir. Bu nəticələr yaxşı hesab edilir, çünki yüksək və çox

yüksək standartlarda təhsilin idarə edilməsində innovasiyanın istehsalı səviyyəsinin 60%-lik payı dolayısı ilə kollec təhsili səviyyəsində keyfiyyət və tərəqqi deməkdir. Bununla belə, innovasiyaların kiçik miqyasda və ya ümumiyyətlə istehsal olunmadığı indikatorları, bəzi qərar qəbul edən rəhbərliyin və/yaxud bu kollecdəki müəllim heyətinin motivasiya səviyyəsinin bir qədər zəif və ya aşağı olması ilə izah oluna bilər.

Pedaqoji eksperimentdən əldə olunmuş nəticələrin yoxlanılması üçün əvvəlki suala yaxın, lakin innovasiya və təlim keyfiyyətinin korrelyativ əlaqəsinin bu təşkilatlarda olan faktik vəziyyətini bir daha yoxlamaq məqsədilə eksperimentin sonunda keçirdiyimiz digər sorğu bir daha innovasiay ilə təlim keyfiyyətinin korrelyasiyasını təsdiq etməklə bərabər (Bax: Cədvəl 3.3.6.), həm də buradakı göstəricilərin Cədvəl 3.3.5-də göstərilən indikatorlara yaxın olduğunu və ciddi fərqlənmədiyini, beləliklə də, innovasiyalı idarəetmənin təlim keyfiyyətinin artırılmasında xüsusi rola malik olduğunu sübuta yetirir.

**Cədvəl 3.3.6**

**ADPK və APK-də innovasiyanın tətbiqi ilə təlim keyfiyyəti arasında korrelyativ əlaqə göstəriciləri 2020-2022-ci illər**

| **Sizin kollecdə innovasiyanın tətbiqi təlimin keyfiyyətini necə inkişaf etdirir?** | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Çox yüksək | Yüksək | Zəif | Heç ink. etdirmir | Cəmi keyf.% | Cəmi müvəf.% |
| **ADPK müəllimlər** | 25 | 45 | 22 | 8 | 70% | 92% |
| **APK müəllimlər** | 23 | 40 | 12 | 17 | 63% | 75% |
| **ADPK tələbələr** | 28 | 40 | 8 | 26 | 68% | 76% |
| **APK tələbələr** | 22 | 38 | 11 | 6 | 60% | 71% |
| **Yekun keyfiyyət %** | **ADPK – 69%** | | | **APK – 61%** | | |

Bu gün dünya təcrübəsində təlimin keyfiyyətinin ölçülməsinə dair elmi-nəzəri bazada və metodikada digər yanaşmalar da mövcuddur. Məsələn, rusiyalı alimlər bu təlimin keyfiyyət meyarlarını əsasən iki – obyektiv və subyektiv qrupa bölürlər. Obyektiv qiymətləndirmə meyarlarına təlimin bütövlüyü, dərinliyi, çevikliyi, konkretliyi, ümumiləşdirmə xüsusiyyəti, sistematikliliyi və çoxşaxəliliyi daxil edilir. Subyektiv meyarlarda isə biliklərin elastikliyi, çevrilə bilənliyi, dərk oluna bilməsi və möhkəmliyi əsas xüsusiyyətlər kimi göstərilir. Bəzi yanaşmalarda komponentlər sırasına relyativliyi – nisbi əlaqənin də daxil edilməsinin şahidi oluruq. Bu komponentə alimlər adətən biliyin keyfiyyət nəticələrinə aid olan komponentləri – biliklərin kollecin fəliyyət göstərdiyi icmaya verdiyi xeyiri, onun məzmununu, faydalılığını, niyyəti və sair kimi elementləri şamil edirlər.

Tədqiqat aşağıdakı nəticələrə gəlməyə əsas verir:

Pedaqojiyönlü kolleclərin innovasiyalı idarə edilməsinin təlimin keyfiyyətinə təsiri problemi həm respublikamızda, həm də xaricdə aktuallıq kəsb edən bir mövzudur. Lakin bu elmi problematika elmi-pedaqoji ədəbiyyatda nə qədər çox tədqiq olunsa da, yeni-yeni sahələrin yaranması problemin davamlı olaraq gündəmdə qalmasına səbəb olur və bununla da fənlərarası polemikanı daha da gücləndirir.

Tədqiqat işində innovasiyaların formalaşması, təşəkkülü və məzmunu kimi məsələlər geniş araşdırılmış və göstərilmişdir innovativ idarəetmə strateji planlaşdırma konsepsiyasına uyğun olaraq iqtisadi bazisə əsaslanmaqla koqnitiv səciyyəlidir və onunla qarşılıqlı vəhdət və əlaqə təşkil edir.

İnnovasiya məzmunundan irəli gələn səriştəlilik, fikir müxtəlifliyi və nisbi muxtariyyəyəti təsbit edən şərtlər əsasında formalaşır və o, kolleclərin innovativ idarə edilməsidə üç mühüm elmi-pedaqoji xüsusiyyəti özündə əks etdirir. Bunlar: a) kollektivin təkrarolunmaz ununikallığını (ontoloji tərəf) b) fərqli fikir və səlahiyyətlərə malik olmasını (differensial aksioloji tərəf) və c) motivlərin istiqmətini (funksional tərəf) özündə birləşdirir. Dissertasiyada göstərilir ki, kolleclərin innovasiya potensialı yalnız onların daxili imkanları hesabına deyil, həm də ərazi innovasiya sistemləri vasitəsilə həyata

keçirilir və çoxkomponentlidir və bu komponentlər içərisində milli trendlər və beynəlxalq təcrübə mühüm rol oynayır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, pedaqoji innovasiya üç mühüm perspektivi hədəfləyirr:

- cəmiyyətdə dəyişiklik edir;
- tərəqqi kimi yeniliklər yaradır;
- şəxsi mənafe, nüfuz və ya peşəkarlığa xidmət edir.

Dissertasiya 3 mərhələdə keçirilən pedaqoji eksperimentlərin ümumiləşdirərək belə nəticə gəlmişdir ki, innovativ idarəetmə pedaqojiyönlü kolleclərdə təlim keyfiyyətinin yüksəldiməsi strategiyasının əsas hissəsinə çevrildiyi üçün, onun nəinki təlim keyfiyyətinə təsir amilləri diqqətlə öyrənilməli, həm də onun idarə edilməsi üçün harmonik proseslər yaratmaq gərəkdir.

Nəhayət, biz bu tədqiqatla bağlı bir sıra nəticələrin və təkliflərin irəli sürülməsini zəruri hesab edirik.

1. Təhsil sahəsində mövcud olan innovasiyaların meydana gəlməsi tarixi və bu paradiqmanın ilk dəfə işlədilməsi 19 və 20-ci əsrlərin qovşağında elm, texnika və mədəniyyət sahəsində baş verən böyük dəyişikliklər ilə əlaqədar olmuşdur.

2. İnnovasiyaların məzmunu, növləri, yaranma mexanizmi və onun səbəbləri, yaratdığı imkanlar və təlim keyfiyyətinə təsir mexanizminin öyrənilməsi dərin elmi-nəzəri konsepsiyaların sırasına aid olduğundan, bu problem daim olaraq həm ayrı-ayrı fənlər, həm də fənlərarası sistemdə öyrənilir.

3. Pedaqoji innovasiyalar öz təbiətlərinə görə koqnitiv, fəallığına görə isə multifunksionaldır.

4. Kolleclərin innovasiyalı idarə edilməsi idarəetmə prosesini təkmilləşdirdiyi üçün, o, tələbələrin bilik fərqlərini aradan qaldırmağa yardımçı olur.

5. İnnovasiyalar miqyasına, təbiətinə, və implementasiya modullarına görə fərqli cəhətləri təmsil etdikləri üçün onlar adətən çoxşaxəli səciyyə daşıyır.

6. Kolleclərin innovasiyalı idarə olunması öz pedaqoji-psixoloji xüsusiyyətləri baxımından işçilərin səriştəliliyinə, onların fikir müxtəlifliyinə və muxtariyyəyətinə əsaslanır.

7. İnnovativ idarəetmə bir çox sahələrdə yeniliklər yaramaq gücünə malik olsa da, onun təlimdə tətbiqi həmişə keyfiyyətlə bağlıdır.

8. Pedaqojiyönlü kolleclərdə təlimin keyfiyyətinə nəzarətin qurulması və həyata keçirilməsi çoxkomponentlidir.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürülür

1. İnnovasiyalı fəaliyyəti təhlil edərkən onun mahiyyətindəki elmilik, strukturdakı praktika, elm, təşkilatı-pedaqoji elementlər mütləq nəzərə alınmalıdır.

2. Kolleclərin innovasiyalı idarə edilməsinin modelləşdirilməsi həm ənənəvi təhsil və təlimi, həm də onların mümkün böhranlı vəziyyətdə idarəetmə işlərinin fərqli xüsusiyyətlərini nəzərə almalıdır.

3. Texnologiya özü ayrılıqda innovativ idarəetmə hesab edilməsə də, onun böhranlı vəziyyətdə artan əhəmiyyəti – innovativliyi, adaptivliyinin təsir gücləri və imkaları həmişə diqqətdə saxlanılmalıdır.

4. Elmi və nəzəri ədəbiyyatda innovasiayaların növlərini tədqiq edərkən onların çoxalmasına səbəb olan implementasiya modelləri (struktur, funsksiya, meyarlara əsaslanma və idarəetmə səviyyəsi) çıxış nöqtəsi kimi qiymətləndirilməlidir.

5.İnnovasiyalı idarəetmədə texnologiyanın, metod və səmərəliyin qarşılıqlı əlaqəsinin həm sayıla bilən, həm də sayıla bilməyən təlim keyfiyyətləri yarada bilməsi diqqətdə saxlanılmalıdır.

6. İnnovasiya praktikasının davamlılığının səbəbləri onun mənbəyində dayanan birbaşa innovasiya yaradan və innovasiyanın təsirləri ilə bağlı olan faktorların korrelyativ əlaqəsi ilə bağlıdır.

7. İnnovasiyaların tipoloji bölgüsündə onların dərinliyi və intensivliyi aparıcı tərəflər kimi digər meyrlara əsaslanan bölgülərlərlə nisbətdə üstün qiymətləndirilməlidir.

8. Pedaqoji innovasiyanın məzmun aparatının müəyyənləş-diririlməsində təklif olunan definisiyanın nəzərə alınması tövsiyə edilir: “Pedaqoji innovasiya, pedaqoji nəzəriyyə, metodik yanaşma, tədris texnikası, təlim aləti, öyrənmə prosesi və ya institusional quruluş tətbiq olunduqda tədrisdə, təlim və tərbiyədə əhəmiyyətli və səmərəli (sayıla bilən və sayıla bilməyən) dəyişiklik meydana gətirən

və tələbələrin təlim və tərbiyəsində onların daha yaxşı öyrənməsinə səbəb olan məhsul və ya proses (və ya onların hər ikisi) hesab edilir”.

9. Pedaqojiyönlü kolleclərin təlim keyfiyyətini qiymətləndirərkən innovativ tətbiqetmələrin bir-biri ilə bağlılığını, təhsil prosesinin inzibatçılığını, təhsil keyfiyyəti komponentlərinin qarşılıqlı əlaqədsi nəzərdə saxlamaq tövsiyə edilir.

10. Tövsiyə olunur ki, innovativ davranış pedaqojiyönlü kollec heyətinə fürsətləri araşdırmaqda böyük yardım göstərdiyi üçün, bu qarşılıqlı əlaqənin icrasındakı boşluqlar doldurmaq üçün problemlərin həlli yollarınına yönəlişlikli tədqiqatların sayı və keyfiyyəti gələcəkdə daha da artırılsın.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap etdirdiyi məqalələrində öz əksini tapmışdır:**


1. Təhsil, İnnovasiya və İdarəetmə.//Sivilizasiya jurnalı, – Bakı Avrasiya Universiteti, – 2018, № 2. – s. 12-18.
2. Management of Colleges with İnnovative Trends: Indicators, Criteria and Success // American İnternational Journal of Social Sciences. (Print) 1030845/aijss double-blind peer reviewed journal, Bangladesh – September 2018, volume 7, №3, – p. 100-105.
3. Kolleclərdə innovasiya sisteminin yaradılması // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2018, № 8. – s. 296-303.
4. Pedaqoji innovasiyaların növləri və onların tətbiqi xüsusiyyətləri // Azərbaycan məktəbi, 2019, № 1. - s. 57-67.
5. Təhsildə “yeniliklər” və “innovasiyalar” // Azərbaycan və Türkiyə Universitetləri: Təhsil, elm, texnologiya I beynəlxalq elmi-praktik konfransa dair toplu (3 clilddə), – 2019, 18-20 dekabr, cild 1. – s. 163-168.
6. Origin, development and types of pedagogical innovations (Case study in Azerbaijan Pedagogical College). //International Conference, Педагогика и психология в современном мире: теоретические и практические исследования: сб. ст. По материалам XXXIII Международной научно-практической конференции. – Москва: Интернаука. 2020, № 1. – с. 107-118.

7. Opportunities of innovative management in pedagogical colleges and their impact on the quality of education. //International Conference (Педагогика и психология в современном мире: теоретические и практические исследования: сб. ст. по материалам XXXIV Международной научно-практической конференции «Педагогика и психология в современном мире: теоретические и практические исследования». – Москва: Интернаука. – 2020, № 4. Часть 2. – с. 8-19.
8. İnnovativ fəaliyyətin inkişaf perspektivləri. //-Bakı: Slavyan Universiteti, beynəlxalq elmi-praktik onlayn konfrans, "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində". Bakı: Mütərcim, – 2020, 24 dekabr, – s. 25-29.
9. Kolleclərdə innovativ təlimin pedaqoji və psixoloji xüsusiyyətləri //– Bakı: Pedaqoki Universt xəbərləri, – 2021, №4, - s.109-121.
10. İnnovativ təlimin tarixinə dair araşdırmalar // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2022, № 1, – s. 91-96.
11. Kolleclərin innovativ idarəçiliyi və onun təlim keyfiyyətinə təsiri modelləri // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2022, № 1, – s.187-193.
12. Müəllimlərin innovativ fəaliyyəti və onun struktur elementləri. // – Bakı, Pedaqogika, 2022, № 1, – s. 22-30.

Dissertasiyanın müdafiəsi “____” ______ 2024-cü il tarixdə saat “____”da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi, 41

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “____” _____ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.05.2024

Kağızın formatı: A5

Həcm: 46 532 işarə

Tiraj: 100